# CPC - Xəzər regionunun yeganə boruörtükləmə müəssisəsi



**Bakıda boruların izolyasiyası və betonla örtüklənməsi zavodu əsası ümummilli lider Heydər Əliyev tərəfindən 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulan yeni neft strategiyasının həyata keçirilməsinə dəstək vermək üçün 2002-ci ildə yaradılıb. Bu, həmin dövrdə ARDNŞ-nin birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilib. 2007-ci ildən etibarən tam yerli müəssisə kimi yenidən qeydiyyatdan keçən "Caspian Pipe Coatings" MMC-nin təsisçiləri SOCAR və "Azərtrans", əsas sifarişçiləri isə SOCAR və BP şirkətləridir.**



"Caspian Pipe Coatings" (CPC) Xəzər regionunda neft və qaz boru kəmərlərinə korroziya əleyhinə izolyasiya və beton örtüyünün çəkilməsi üzrə tam çeşiddə xidmət göstərən yeganə müəssisədir. CPC-nin əsas fəaliyyəti neft-qaz sənayesində magistral boru xətlərinin tikintisində istifadə olunan boruların xarici və daxili səthinin korroziyaya qarşı izolyasiyası və betonla örtüklənməsindən ibarətdir.

2002-ci ildən başlayaraq zavod BP ilə imzalanmış hasilatın pay bölgüsü sazişləri çərçivəsində "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında neft, qaz və lay suları boru kəmərlərinin çəkilməsi üçün müxtəlif diametrli boruların örtüklənməsi işlərini görüb. 2006-2007-ci illərdə "Azəri-Çıraq-Günəşli" yataqlarının texniki su ilə təmin edilməsi məqsədilə lay sularının nəqli üçün 14 düymlük boru xəttinin tikintisi çərçivəsində boruların korroziyaya qarşı izolyasiyası və beton örtüyünün çəkilməsini icra edib. 2007-2008-ci illərdə SOCAR-ın sifarişi ilə "Neft Daşları-Bahar" və "Bahar-Hövsan" layihələri üçün 20 düymlük boru xətlərinin betonla örtüklənməsini uğurla başa çatdırıb. CPC eləcə də Qazaxıstanda həyata keçirilən "Kaşaqan" və Türkmənistanda "Jdanov" layihələri üçün betonlanmış boru örtüklərinin təmirini və yenidən örtüklənməsini həyata keçirib.

Müəssisə 2011-2012-ci illərdə BP ilə əvvəlcədən imzalanmış müqaviləyə əsasən "Çıraq Neft Layihəsi" çərçivəsində boruların korroziyaya qarşı izolyasiyası və betonla örtüklənməsi işlərini reallaşdırdı. 2012-ci ildə isə SOCAR-ın sifarişi ilə "Ümid" qaz yatağının istismarında istifadə olunacaq 16 düymlük boruların betonla örtüklənməsini sona çatdırdı.

Ümumiyyətlə, zavodun 13 il ərzində izolyasiya etdiyi boruların ümumi uzunluğu 2500 kilometri ötüb.

Əlverişli coğrafi mövqeyi, eyni vaxtda 45-dək vaqon qəbul etməyə qadir olan dəmir yolu xətləri kommunikasiyası, boruların gəmilərə yüklənməsi-boşaldılması əməliyyatlarının səmərəli aparılmasına şərait yaradan 150 metr uzunluğunda sahil körpüsü və ən müasir qaldırıcı-daşıyıcı texniki vasitələr müəssisəyə belə irimiqyaslı layihələrin həyata keçirilməsinə imkan yaradır. CPC həmçinin magistral boru xətlərində örtüklərin yoxlanılması, boruların, konteynerlərin və iritutumlu yüklərin dəmiryolu, gəmilər və avtonəqliyyat vasitələrinə yüklənib-boşaldılması, onların açıq və qapalı anbarlarda saxlanılması kimi əlavə xidmətlər də təklif edir.

Müxtəlif texniki tələbləri olan bir çox layihələrdə iştirak etməklə, "Caspian Pipe Coatings" bütöv istehsal prosesinə, o cümlədən alınmış xammalın keyfiyyətinə, yükləmə-boşaltma əməliyyatlarına, izolyasiya olunmuş boruların sifarişə əsasən təyinat yerinə çatdırılmasına və bütün bunların təhlükəsiz yerinə yetirilməsinə təminat verən vahid idarəetmə sistemi yaradıb. Təsadüfi deyil ki, CPC-nin mütəxəssisləri biliklərinin təkmilləşdirilməsi və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müntəzəm olaraq Azərbaycanda, eləcə də xarici ölkələrdə təcrübə və təlimlər keçirlər.

13 il ərzində uğurla həyata keçirilmiş layihələrin nəticəsi olaraq müəssisənin qabaqcıl əməkdaşları ARDNŞ-nin fəxri fərmanları ilə təltif olunublar. CPC-nin "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz-1" layihələrinin icrasında əldə etdiyi təhlükəsiz əmək və yüksək keyfiyyət göstəriciləri müxtəlif illərdə BP-nin layihə direktorları tərəfindən mükafat və sertifikatlarla qeyd olunub. Müəssisə keyfiyyətin idarəedilməsi, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi üzrə idarəetmə sistemi sahəsində Beynəlxalq İSO standartlarına layiq görülüb.

"İnsanlara, ətraf mühitə və əmlaka heç bir ziyan vurmayaq!". Bu, CPC-də tətbiq olunan beynəlxalq standartlar və uzun illərin təcrübəsi nəticəsində yaranmış əsas prinsiplərdən biridir. "Caspian Pipe Coatings" fəaliyyəti dövründə iki milyona yaxın yükqaldırma əməliyyatı həyata keçirib və yüksək təhlükəsizlik şərtlərinin tətbiqi nəticəsində bu müddət ərzində müəssisədə heç bir xoşagəlməz hadisə baş verməyib.

Hazırda CPC "Şahdəniz-2" layihəsi çərçivəsində boruların korroziyaya qarşı üçqat izolyasiyası və betonla örtüklənməsinə başlayıb. Sifarişçisi BP şirkəti olan bu layihənin icrasına dair "Caspian Pipe Coatings" ilə ShawCor Nederland şirkəti arasında müqavilə 2014-cü ilin avqustunda imzalanıb.

Layihənin tələblərinə uyğun olaraq, boruların korroziyaya qarşı izolyasiyası və betonla örtüklənməsi sexlərinin avadanlıqları təkmilləşdirilib, yeni dəmir yolu xətləri çəkilmiş, zəruri infrastruktur işləri görülüb. Ötən ilin sonundan etibarən boruların vaqon və gəmilərdən boşaldılması əməliyyatları aparılır.

Müəssisədə boruların örtüklənməsinə bu ilin mart ayında start verilib. Ümumilikdə, 2015-2016-ci illərdə "Şahdəniz-2" layihəsi üçün ümumi uzunluğu 150 kilometr olan 16 və 32 düymlük boruların örtüklənməsi planlaşdırılıb.

Layihənin icrasında 350 yerli mütəxəssis iştirak edir. Onların əksəriyyəti burada müəssisə yarandığı gündən çalışır. "Şahdəniz-2" layihəsinin icrasında ölkə sənayesində aparıcı müəssisələr sayılan "Azərbaycan Polad İstehsal Kompleksi" QSC (Daşkəsən yatağından əldə olunan dəmir filizin istehsalçısı), sement istehsalçısı "Holcim Azərbaycan" ASC, 60-a yaxın kiçik və orta yerli təşkilat və müəssisə CPC-nin podratçısı qismində fəaliyyət göstərir.

"Neft Daşları-Bahar", "Çıraq Neft Layihəsi", "Şahdəniz-2" və digər layihələrin həyata keçirilməsində SOCAR-ın dəstəyi CPC-nin dinamik inkişafına və biznesin genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

"Boruların örtüklənməsi üzrə sizin etibarlı tərəfdaşınız!". Müəssisənin şüarı belədir. CPC-nin sifarişçiləri və tərəfdaşları üçün etibarlılığın təmin edilməsinin əsas amilləri dinamik inkişaf və göstərilən xidmətlərin keyfiyyətinin daim təkmilləşdirilməsidir. Bu amillər yerli rəqabətqabiliyyətli məhsullar istehsal edən müəssisələrin beynəlxalq bazarlarda fəaliyyəti üçün yeni perspektivlər və imkanlar açır.

CPC "Cənub" qaz dəhlizini Avropa və region dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyəti olan layihə kimi dəyərləndirir. Müəssisə perspektivdə bu layihənin icrasında da əməkdaşlığa hazır olduğunu bəyan edib.

***Flora SADIQLI, "Azərbaycan"***